**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№363/5** **21 fevral 2024-cü il**

**Azərbaycan Respublikasının Auditorlar Palatası və**
**Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agenliyi arasında**
**Əməkdaşlıq Sazişinin imzalanması barədə**

Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin 2023-cü il 14 sentyabr tarixli 1/20 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən 2023-cü ilin 31 iyul tarixində “Audit və qiymətləndirmə fəaliyyəti” mövzusunda keçirilmiş ictimai müzakirənin nəticəsi ilə əlaqədar Tədbirlər Planı”nın 1-ci bəndinin icrasını təmin etmək məqsədilə Auditorlar Palatası sədrinin müşaviri F.Qarayev tərəfindən hazırlanmış və qarşı tərəflə razılaşdırılmış Əməkdaşlıq Sazişinin mətninin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının Auditorlar Palatası və Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agenliyi arasında imzalanacaq Əməkdaşlıq Sazişinin mətninin layihəsi bəyənilsin (əlavə olunur).

2. Auditorlar Palatası sədrinin müşaviri F.Qarayevə tapşırılsın ki, qarşı tərəflə razılaşdırılmaqla Əməkdaşlıq Sazişinin imzalanması ilə əlaqədar təşkilati işləri həyata keçirsin.

3. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novuzov**